9 oktyabr 2013-cü ilə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Ramiz İbrahimov, Qabil Orucov, Validə Kazımova və Emin Quliyevin namizədi qeydə alınmış Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədovun, İctimai Televiziya və Radio Yayımları Şirkətinin və qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətləri üzrə

**BİRGƏ RƏYİ**

Bakı şəhəri 21 sentyabr 2013-cü il

Biz, ekspert qrupunun üzvləri Ramiz İbrahimov, Qabil Orucov, Validə Kazımova və Emin Quliyev 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədovun 20 sentyabr 2013-cü il tarixli, 01 və 02 saylı, İctimai Televiziya və Radio Yayımları Şirkətinin 20 sentyabr 2013-cü il tarixli, 03 saylı və qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin 20 sentyabr 2013-cü il tarixli, 04 saylı müraciətlərini araşdıraraq müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1-ci maddəsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əklaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli Təlimatının tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir. Müraciətlər ilkin araşdırılarkən şikayətlərin eyni zamanda və məkanda baş vermiş qanun pozuntuları ilə əlaqədar olduğunu nəzərə alaraq onların bir icraatda birləşdirilərək araşdırılması və birgə rəy verilməsi qərara alınmışdır. Ictimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən verilən müraciət də seçkiqabağı təşviqat dövründə bu prosesə qoşulmuş kütləvi informasiya vasitəsi olaraq onun birbaşa fəaliyyəti, seçicilərin keyfiyyətli məlumat almaq hüquqları və təşviqat aparan subyektlərin maraqları ilə əlaqəli olduğundan həmin müraciət də digər müraciətlər ilə birlikdə araşdırılmışdır.

Müraciət etmiş şəxslər ekspert qrupunun üzvləri tərəfindən araşdırmaya dəvət edilsələr də gəlməmişlər, müraciətdə göstərilənlərlə bağlı əlavə sənədlər və sübutlar təqdim etməmişlər.

Müraciətlərin araşdırılması nəticəsində aşağıdakılar müəyyən edilmişdir:

9 oktyabr 2013-cü ilə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədov 20 sentyabr 2013-cü ildə Mərkəzi Seçki Komissiyasına müraciət edərək sentyabrın 19-da Azərbaycan

Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış ödənişsiz efir vaxtının "Xalq seçir" adlı proqramında "Dəyirmi masa"da müzakirələr aparılarkən "Demokratik Qüvvələrin Milli Şurası" seçicilərin təşəbbüs qrupu tərəfindən namizədliyi irəli sürülərək qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 88-ci maddəsinin müvafiq bəndlərinin tələblərini pozmaqla təşviqat aparmasını, nəticədə Yeni Azərbaycan Partiyasının namizədi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsilə qorunan şərəf və ləyaqətinə və eyni zamanda onun ailə üzvlərinin şərəf və ləyaqətinə toxunan ifadələrdən istifadə etməsini, habelə efir etikasına və ayrılmış təşviqat müddətinin məqsədlərinə uyğun gəlməyən, digər namizədlərin təşviqat aparmaq hüquqlarının pozulmasına səbəb olan qanunsuz hərəkətlər törətməsini bildirib, qanunla müəyyən olunmuş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

"Demokratik Qüvvələrin Milli Şurası"nın seçicilərin təşəbbüs qrupu tərəfindən namizədliyi irəli sürülərək qeydə alınmış namizəd Həsənli Cəmil Poladxan oğlu da həmin tarixdə Mərkəzi Seçki Komissiyasına müraciət edərək, qeyd edilən "Dəyirmi masa"da prezidentliyə qeydə alınmış digər namizəd Hafiz Hacıyev və Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədov tərəfindən özünün şərəf və ləyaqətinin alçaldılmasını, habelə Hafiz Hacıyev tərəfindən onun namizədi olduğu seçicilərin təşəbbüs qrupunun ayrı-ayrı üzvlərinin şərəf və ləyaqətinin təhqir edilməsini, onların müxtəlif cinayətlərdə ittiham edilməsini, sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan ifadələr işlətməsini, plastik su qabını ona tərəf tullamaqla xuliqanlıq hərəkəti etməsini, nəticədə ona ayrılmış efir vaxtının 1.5 dəqiqəsindən istifadə edə bilməməsini göstərərək müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkəti də həmin tarixdə Mərkəzi Seçki Komissiyasına müraciət edərək sözügedən "Dəyirmi masa" iştirakçısı olmuş qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin təşviqat üçün ona ayrılmış pulsuz efir vaxtından istifadə edərkən kobud davranışı ilə digər iştirakçıların hüquqlarını pozmasını, öz çıxışında Azərbaycan Respublikası Prezidentinin və onun ailə üzvlərinin ünvanına qeyri-etik və böhtan xarakterli ifadələr işlətməklə Azərbaycan Respublikasının Konstitusiyasının və digər qanunvericilik aktlarının tələblərini kobud şəkildə pozmasını, habelə bu davranışı ilə ona ayrılmış efir vaxtından 6 dəqiqə 12 saniyə artıq istifadə etməklə quruma maddi ziyan vurmasını bildirmişdir. Eyni zamanda, müraciətdə o da qeyd edilmişdir ki, Cəmil Həsənli belə davranışı ilə " Dəyirmi masa" üçün ayrılmış ümumi efir vaxtından artıq vaxtın sərf olunmasına səbəb olmuş, digər proqramların vaxtında və keyfiyyətlə tamaşaçılara çatdırılması işini pozaraq efir tələblərinə cavab verməyən ifadələr işlətməklə Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin işgüzar nüfuzuna xələl gətirmiş, geniş tamaşaçı auditoriyasının keyfiyyətli məlumat almaq hüquqlarına ciddi zərbə vurmuşdur. Qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin barəsində qanunvericiliklə müəyyən olunmuş tədbirlərin görülməsi ilə yanaşı, bu kimi xoşagəlməz halların

təkrarlanmaması üçün “Dəyirmi masa” iştirakçılarına xəbərdarlıq edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən Mətbuat Qrupu da öz iclasında qeyd edilən “Dəyirmi masa”da qanun pozuntularına dair məlumatları araşdıraraq, müəyyən pozuntuların olması qənaətinə gəlmiş və qanunla müəyyən olunmuş tədbirlərin görülməsi məqsədilə Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir.

Sözügedən “Dəyirmi masa”nın videoyazısı müraciət edən şəxslər tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Ekspert qrupunun üzvləri hesab edir ki, Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat Qrupunun qeyd edilən “Dəyirmi masa”da yol verilmiş qanun pozuntuları ilə əlaqədar müvafiq tədbirlərin görülməsi barədə müraciəti də nəzərə alınaraq digər müraciətlər qismən təmin olunmalıdır.

Belə ki, araşdırma ilə müəyyən edilmişdir ki, cari ilin sentyabrın 19-da Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən seçkiqabağı təşviqat məqsədilə təşkil olunan və yayımlanan “Xalq seçir” adlı proqramında “Dəyirmi masa”da müzakirələr aparılarkən prezidentliyə qeydə alınmış namizəd Cəmil Həsənli ona ayrılmış efir vaxtından təkrarən təyinatı üzrə istifadə etmədən (təşviqat apararkən qanunvericiliyin tələblərinə əməl edilməsinə dair Mərkəzi Seçki Komissiyasının çağırışlarına məhəl qoymadan birinci dəyirmi masada olduğu kimi) Azərbaycan Respublikasının Prezidentinin şərəf və ləyaqətinin qorunmasını müəyyən edən Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsinin tələblərini və onun ailə üzvlərinin qanunla qorunan mənafelərini, habelə seçkiqabağı təşviqatın aparılmasına dair Azərbaycan Respublikası qanunvericiliyinin tələblərini geniş tamaşaçı auditoriyasının gözü qarşısında kobud şəkildə pozaraq, öz çıxışında seçkiqabağı təşviqat aparmaq əvəzinə, fəaliyyətdə olan Respublika Prezidenti cənab İlham Əliyevin və onun ailə üzvlərinin ünvanına həqiqətə uyğun olmayan və qanunla qadağan olunmuş ifadələr işlətmişdir.Bununla da maraqlı tərəflərə onun barəsində cinayət təqibi və məsuliyyətə cəlb edilməsi ilə əlaqədar tədbirlər görülməsi tələbi ilə müraciət etmək üçün əsas vermişdir.

Ekspert qrupunun üzvləri hesab edir ki, bu hal seçkiqabağı təşviqat tədbirləri çərçivəsində və yaranmış gərgin psixoloji vəziyyətdə baş verdiyindən, iştirakçıların builki seçkilərdə “Dəyirmi masa”da ilk müzakirələrdən biri olduğundan və bu geniş təcrübə qazanmaq üçün kifayət etmədiyindən, eyni zamanda bu hal təkrarən baş versə də, ilk dəfə belə ciddi şəkildə təzahür etdiyindən C.Həsənli tərəfindən qanunvericilikdə nəzərdə tutulduğundan daha geniş istifadə edilsə də, AR Konstitusiyasının 47.1-ci maddəsinin tələbləri və qeyd edilən hallar nəzərə alınaraq onun barəsində cinayət təqibi tədbirlərinin görülməsi məsələsinin həll edilməsi üçün müraciət edilməsi əvəzinə ona ciddi xəbərdarlıq edilməklə kifayətlənilməlidir.

Qeydə alınmış namizədlərin seçkiqabağı təşviqatın aparılması üçün İctimai Televiziyada təşkil edilmiş “Dəirmi masa”nın videoyazısından müəyyən edilir ki, ona ayrılmış efir vaxtından tam istifadə etmiş qeydə alınmış namizəd

Hafiz Hacıyev isə, Cəmil Həsənlinin Azərbaycan Respublikasının Prezidentinin və onun ailə üzvlərinin qanunla qorunan hüquq və mənafelərinə yönəlmiş qanunsuz və əsassız çıxışına etiraz əlaməti olaraq mikrofondan istifadə etmədən müdaxilə etməklə efir tələblərini və etikasını kobud şəkildə pozaraq çoxmilyonlu tamaşaçı auditoriyasının gözləri qarşısında, canlı efirdə ona qarşı qeyri-etik ifadələr işlətmiş və qarşısında qoyulmuş boş plastik su qabını Cəmil Həsənliyə tərəf tullamışdır. Eyni zamanda o, öz çıxışında müxtəlif şəxslərin şərəf və ləyaqətinin təhqir edilməsi və onların müxtəlif cinayətlərdə ittiham edilməsi, sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan ifadələr kimi yozula bilən sözlərdən istifadə etmişdir. Bununla da, Cəmil Həsənlinin ona ayrılmış efir vaxtının 1.5 dəqiqəsindən normal və fasiləsiz istifadə etməsinə maneə törədilmişdir. Bunun nəticəsində C.Həsənli ona ayrılmış efir vaxtının 25 saniyəsindən istifadə edə bilməməsi səbəbindən həmin vaxtın bərpa edilməsinə dair aparıcı qarşısında tələb qoymuşdur. Bu tələbi davam etdiyrən C.Həsənli mübahisəni onun xeyrinə həll edilməyənədək uzadacağını bildirərək bununla digər “Dəyirmi masa” iştirakçısı YAP-ın səlahiyyətli nümayəndəsi Ə.Əhmədovun çıxışının davam etdiriməsinə maneə törətmişdir.

Buna baxmayaraq o, fasilələrlə olsa da həmin vaxtdan istifadə edərək sərbəst şəkildə apardığı təşviqatın üsul, forma və məzmununa tam uyğun olaraq, mənafeləri qanunla qorunan Dövlət Başçısının qanuni maraqlarına yönəlmiş ifadələr işlətməklə, seçkiqabağı təşviqata həsr edilmiş proqramın normal axınına ciddi maneələr törətsə də, əslində ona ayrılmış vaxtdan 6 dəqiqə 12 saniyə artıq istifadə edərək, bəzi seçki texnoloqları tərəfindən uğurlu vasitə kimi istifadə edilən “mübahisə zəminində təşviqat” modelini nümayiş etdirmiş olmuşdur. Ona görə də C.Həsənliyə həmin həcmdə efir vaxtından istifadə edilməsi üçün şəraitin yaradılmasına heç bir əsas yoxdur və Mərkəzi Seçki Komissiyasının qanunvgericilikdə belə səlahiyyəti nəzərdə tutulmamışdır.

Hafiz Hacıyevlə arasında yaranmış mübahisə zəminində, istifadə edilməmiş efir vaxtının müddəti ilə bağlı yaranmış anlaşılmazlığı Mərkəzi Seçki Komissiyası ilə həll etməli olduğu halda Cəmil Həsənli “Dəyirmi masa” aparıcısının qanuni tələblərinə məhəl qoymadan, aparıcı ilə onun səlahiyyətinə aid olmayan məsələ ilə bağlı (əlavə efir vaxtının ayrılması) mübahisə edərək müzakirələrin müəyyən olunmuş ardıcıllıqla və müddətdə aparılmasına, ayrılmış efir vaxtından artıq efir vaxtının lüzumsuz sərf edilməsinə, bununla da “Dəyirmi masa” iştirakçılarının və televiziya tamaşaçılarının qanunla müəyyən olunmuş hüquqlarının pozulmasına və Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin işgüzar nüfuzuna xələl gətirilməsinə səbəb olmuşdur.

Ekspert qrupunun üzvləri tərəfindən aparılan araşdırma ilə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədovun qeydə alınmış namizəd C. Həsənliyə qarşı qanunsuz hərəkətlərə yol verməsini təsdiq edən fakt aşkar edilmədiyindən onun davranışının qanunvericiliyin tələblərinə zidd olmasına dair qənaətə gəlməyə heç bir əsas müəyyən edilməmişdir.

Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə gəldikdə isə, ekspert qrupunun üzvləri hesab edir ki, seçkiqabağı təşviqat

məqsədləri üçün ayrılmış efir vaxtından istifadəçilərin “Dəyirmi masa” formatına uyğun olaraq keyfiyyətli istifadəsinə, istifadəçilərin öz proqramlarını normal şəkildə seçicilərə çatdırılmasını, habelə seçicilərin öz suveren hüquqlarından istifadə etməsi olduqca əhəmiyyətli olan seçkiqabağı proqram və platformalarla tanış olmaq hüquqlarının təmin edilməsi üçün qanunvericiliyin tələblərinə uyğun olaraq, ən münasib üsul və vasitələrin müəyyən olunması və tətbiq edilməsi zərurəti aşkar şəkildə hiss olunmaqdadır. Ona görə də Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkəti bununla bağlı müvafiq tədbirlər görməli, sonrakı “Dəyirmi masa”ların daha da keyfiyyətlə təşkil edilməsi və seçicilərə məlumat almaq imkanı yaradılması barədə lazımi tədbirlər görməlidir. Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin Cəmil Həsənlinin təqsiri ucbatından 6 dəqiqə 12 saniyə efir vaxtının lüzumsuz yerə sərf edilməsinə dair tələbinə gəldikdə isə, ekspert qrupunun üzvləri hesab edir ki, bu tələbin məhkəmə qaydasında həyata keçirilməsinin mümkünlüyü izah edilməlidir.

Qeyd edilənlərlə yanaşı ekspert qrupunun üzvləri hesab edir ki, Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsinin tələbləri nəzərə alınmaqla, şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsinin məhkəmə qaydasında həyata keçirilməsinin mümkünlüyü tərəflərin diqqətinə çatdırılmalıdır.

Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23.1-ci maddəsinə əsasən,fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir.

Eyni zamanda, ekspert qrupunun üzvləri xüsusilə qeyd etməyi zəruri hesab edir ki, 9 oktyabr 2013-cü ilə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində iştirak edən təşviqat aparmaq hüququna malik olan subyektlər, xüsusilə də “Dəyirmi masa” iştirakçıları onlara yaradılmış imkanlardan və ayrılmış ödənişsiz efir vaxtından istifadə edərkən qanunvericiliyin tələblərinə ciddi əməl etməli, ayrılan efir vaxtından yalnız təşviqat məqsədləri üçün istifadə etməli, qanunla qorunan dəyərlərə toxunmamalı, Azərbaycan Respublikasının Prezidentinin Konstitusiya ilə qorunan hüquq və mənafelərinə hörmətlə yanaşmalı, seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə etməməli, hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməməli və bu cür materiallar yaymamalı, mətbuat azadlığına hörmət bəsləməli, öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamalı, namizədlərin, siyasi partiyaların seçki kampaniyalarına müdaxilə etməməli və onu pozmamalı, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar etməməli, vətəndaşların şərəf və

ləyaqətini təhqir edən mülahizələrə yol verməməli və s. bu kimi qanuni tələblərə ciddi riayət etməlidirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti qanunla qorunur.

Seçki Məcəlləsinin 189.2-ci maddəsinə  əsasən,Teleradio verilişləri təşkilatlarının ayırdıqları pulsuz efir vaxtı qeydə alınmış prezidentliyə namizədlərə müzakirələrin, dəyirmi masaların, digər bu cür təşviqat tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulur. Bu cür tədbirlərin keçirilməsi qaydaları Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.6-cı maddəsinə əsasən seçkilərdə iştirak edən subyektlər aşağıdakı şərtlərə riayət etməlidirlər:

mətbuat azadlığına hörmət bəsləmək; öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki (referendum) kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq; səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək; seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək; hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq; təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;

Həmin Məcəlləsinin 88.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləsinə uyğun olaraq, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşviqat qruplarının seçkiqabağı proqramında (referendumqabağı çağırışlarında), yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır. Bu qadağa Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə uyğun tətbiq edilməlidir.

Həmin məcəllənin 88.2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır.

Yuxarıda şərh olunanlara, Azərbaycan Respublikası Konstitusiyasının 47.1-ci, 106-cı maddələrinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.6-cı, 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 88.1-ci, 88.2-ci, 112-ci, 112-1-ci, 189.2-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında”

Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli Təlimatınının 1, 2 ,4, 6 və 7-ci bəndlərinə əsasən ekspert qrupunun üzvləri **r ə y ə g ə l d i l ə r:**

1. Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat Qrupunun məlumatı nəzərə alınsın.
2. Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədovun 20 sentyabr 2013-cü il tarixli ,01 və 02 saylı, Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin 20 sentyabr 2013-cü il tarixli, 03 saylı müraciətləri qismən təmin edilərək prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənliyə ciddi xəbərdarlıq edilsin.
3. Prezidentliyə qeydə alınmış namizəd Cəmil Həsənlinin 20 sentyabr 2013-cü il, 04 saylı müraciəti qismən təmin edilərək, prezidentliyə qeydə alınmış namizəd Hafiz Ələmdar oğlu Hacıyevə xəbərdarlıq edilsin.
4. Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsinin tələbləri nəzərə alınmaqla, şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsinin məhkəmə qaydasında həyata keçirilməsinin mümkünlüyü tərəflərin diqqətinə çatdırılsın.
5. Təşviqat aparmaq hüququna malik olan subyektlər, xüsusilə də "Dəyirmi masa" iştirakçıları tərəfindən seçkiqabağı təşviqat aparılarkən qanunvericiliyin tələblərinə ciddi əməl olunmasının və sui-istifadə hallarına yol verilməməsinin zəruriliyi bir daha onların diqqətinə çatdırılsın.
6. "Dəyirmi masa"nın yüksək keyfiyyətlə təşkili və aparılması üçün qanunvericiliklə müəyyən olunmuş hədlərdə və qaydada daha münasib üsul və vasitələrin müəyyən olunmasının və tətbiqinin zəruriliyi Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin diqqətinə çatdırılsın.
7. Rəy verildiyi andan 18 saatdan gec olmayaraq Komissiyanın müvafiq qərarı ilə birlikdə dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə çatdırılsın.

| | |
|---|---|
| Ekspert qrupunun üzvü | Ramiz İbrahimov |
| Ekspert qrupunun üzvü | Qabil Orucov |
| Ekspert qrupunun üzvü | Validə Kazımova |
| Ekspert qrupunun üzvü | Emin Quliyev |